# "KƏSİLMƏYƏN SƏSLƏR"

## Yeni kitab haqqında düşüncələrim

**Sizə təqdim etdiyim kitabın müəllifi Mahmud Qacardı. Füzuli rayonun Qacar kəndində dünyaya gələn Mahmud müəllim sözün həqiqi mənasında təpədən-dırnağa söz adamıdı. Yəni zamanında Dövlət Universitetinin jurnalistika fakültəsini mükəmməl bir səviyyədə bitirib öz qələmi, öz imzasıyla həm respublikanın, həm də öz ömrünü həsr etdiyi "Araz" qəzetinin səhifələrində kifayət qədər sevgi qazanıb. Onu tanıyanlar bu insanın ruh adamı olduğunu və söz üçün doğulduğunu həmişə dilə gətiriblər, etiraf ediblər.**

Həyatımın rayon qəzetiylə, yəni Füzuli şəhərində nəşr olunan "Araz"la bağlı günlərinin canlı şahidi olan Mahmud Qacarın mən həm həmkarı, həm də fanat oxucularından biri olmuşam. Tale elə gətirib ki, onun bir-birindən maraqlı, həzim poeziya çələnginin də aurasında bir zaman kəsiyi yaşamaq qismətimə düşüb. Rəhmətlik Vahid Əlifoğlu, Sabir Rüstəmov, Oruc Səda və digərləri ilə yanaşı Mahmud Qacarın şeirlərini mətbuatda oxumaq, yaradıcılıq günlərində müzakirə etmək, xüsusilə onun sözə yanaşmasını ən xırda çalarlarına qədər araşdırmaq bizim üçün o qədər xoş idi ki!..

Bəli, indi mən bütün bunları bir xatirə kimi söyləyirəm və yaşadıqlarımın keçmişdə qaldığına inanmaq istəmirəm. Amma neyləyim ki, zamanı dondurmaq, tutub saxlamaq mənim gücümdə deyil.

Aramızda müəyyən zaman fərqi var, yaş baxımından. Yəni mən orta məktəbi bitirəndə Mahmud Qacar Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Onda təqvimdə 1976-cı il idi. O gündən bu günə Mahmud Qacar sözün içindədi. Hər gün yazır, hər gün oxuyur. Şərt o deyil ki, onun yazdıqlarının hamısı çap olunsun. Və mən bilirəm ki, o bunu qarşısına məqsəd kimi də qoymayıb. O sadəcə ürəyi ilə bacarmır. Ürəyi hökm edir, o da qələmlə kağızın bir-birinə təmasını gerçəkləşdirir. Onda ortaya bir-birindən maraqlı, bir-birindən həzin, bir-birindən də düşündürücü misralar, məqalələr çıxır. Mən də bir oxucu kimi həmin o dünyaya gələn yeni pıçıltıların oxucusu, dinləyicisi oluram.

Bugünlərdə Mahmud Qacarın növbəti kitabı işıq üzü gördü. "Gənclik" nəşriyyatında Əbülfət Mədətoğlunun redaktorluğu ilə AMEA-nın şöbə müdiri akademik Hətəm Quliyevin, yazıçı-dramaturq Seyran Səxavətin və BANF sədri, Azərbaycan Mətbuat Şurasının sədr müavini Umud Rəhimoğlunun rəyçiliyi ilə işıq üzü görən bu kitabda Mahmud Qacar yaradıcılığı bir çiçək kimi açılır. Çünki o, bu kitabda son illərdə yazdığı müxtəlif mövzulu və 8 fəsil altında qovuşdurduğu publisist yazılarını oxuculara təqdim edir. Burada söhbət yurd yerlərimizdən, şəhidlərimizdən, insanlıqdan, sevgidən, inamdan, haqqa güvəndən, əsirlik həyatını yaşayanlardan gedir. İnanın ki, 460 səhifəlik bu kitabın hər bir yazısında, hər bir səhifəsində ürək çırpıntısı özünü açıq-aşkar göstərir. Və mənə bir oxucu kimi müəllifi ürək dözümü, ürək tutumu çox heyrətamiz görünür . Yəni onun bu qədər dərdi, sevgini, xatirəni, arzunu, nifrəti bir ürəkdə necə yaşatması sirr kimi gəlir. Bəzən bu sirlərə yuxu kimi yanaşmaq və inanmamaq istəyirəm. Amma müəllifi çox yaxından tanıdığımdan onun sözə münasibətini mükəmml bildiyimdən həmin o şübhə hissi bir andaca qeybə çəkilir.

Bilirsiniz, mənim düşüncəmə görə, yazı ,




söz adamı o vaxt xoşbəxt olur ki, onu oxuyanlar, onun imzasını soraqlayanlar bir, beş, on, neçə nəfər bilmirəm var, deməli, hər bir nəfərlə o müəllif bir yerdədi. Bax, bu mənada Mahmud Qacarın "Kəsilməyən səslər" kitabı uğurlu bir təqdimatdır. Bu kitabdakı hər bir publisist yazı isə həm sözə xidmətdir, həm Azərbaycan ictimai fikrinə, həm də Azərbaycan coğrafiyasının tanıdılmasına.

Portretlər, müəyyən fotolar, şeir nümunələri bu kitabı bir az da oxunaqlı edir. Ona görə də bir oxucu kimi daxilən rahatam. Bilirəm ki, Mahmudun kitabını yəni "Kəsilməyən səslər"i ən azından onu tanıyanlar arayıb axtaracaqlar. Axı belə kitab arzuolunandır. İkincisi, axı belə kitablar az-az yazılır. Üçüncüsü, axı belə kitabların hamısının müəllifi Mahmud Qacar deyil ki?!

**... Və son olaraq, mən bu kitab haqqında necə deyərlər, atüstü bir təqdimat etdim. İndiki dildə desək, bir anons verdim. Düşünürəm və inanıram ki, bu anonsa səs verənlər olacaq. Çünki kitabın müəllifi "Kəsilməyən səslər"di.**

**Əbülfət MƏDƏTOĞLU**

Ədalət.- 2016.- 21 iyul.- S. 3.